# Prezident İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in təməlini qoyub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq "ağıllı kənd" layihəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçısına və birinci xanıma layihə haqqında məlumat verib. Yaşıl və alternativ enerjinin, "ağıllı idarəetmə" sisteminin tətbiq ediləcəyi "ağıllı kənd" layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub.

*Ardı 2-ci səh.*



# Qarabağ və Şərqi Zəngəzur dünyanın

## Prezident İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in təməlini qoyub

Əvvəli 1-ci səh.

Burada həmçinin məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaq. Kəndin ətrafında isə "ağıllı kənd təsərrüfatı" sahəsi olacaq. Beləliklə, sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün bütün zəruri işlər həyata keçiriləcək.

Prezident İlham Əliyevə kəndə yatırılacaq özəl investisiyalar və məşğulluq layihələri ilə bağlı da məlumat verilib. Bildirilib ki, burada xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq. Tarlada 20 daimi iş yeri yaradılacaq.





Kənddə biznes layihələri də icra olunacaq. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq.

Kənddə Köndələnçay su anbarı əsasında "ağıllı" akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. Burada quşçuluq təsərrüfatı da yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq.

"Ağıllı" turizm həllərinin tətbiqi vasitəsilə kənd turizm infrastrukturunun formalaşdırılması və hotel infrastrukturunun yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev Dövlətyarlı kəndində yeni salınacaq "ağıllı kənd"in təməlini qoyub.

Azərbaycan.- 2021.-19 oktyabr.- S.1-2.